## E-xidmətlər xarici iş adamlarının marağında

İqtisadi İnkişaf Nazirliyi (İİN) tərəfindən mərkəzi və yerli icra hakimiyyəti orqanlarının verdikləri icazələr barədə sahibkarların məlumatlandırılmasına xidmət edən icazələr internet portalına, eləcə də elektron ticarət portalına müraciət edənlərin sayı artmaqda davam edir. Sahibkarlar ölkəmizdə biznesə başlama, qeydiyyat, biznes sektorunda fəaliyyət mexanizmi, qanunvericiliklə bağlı zəruri olan bütün məlumatlarla tanış olurlar. Ötən ay portalın xidmətlərindən, əsasən, ABŞ, Böyük Britaniya, Fransa, Yaponiya, Avstriya, Rusiya, Koreya, Türkiyə və Gürcüstandan 6 min internet istifadəçisi yararlanıb. Ümumilikdə isə istifadəyə verildiyi tarixdən indiyə qədər saytı 24 mindən çox istifadəçi ziyarət edib.

Nazirliyin mətbuat idarəsinin rəisi Abbas Əliyevin sözlərinə görə, icazələr elektron portalı sahibkarlıq fəaliyyəti növləri ilə məşğul olmaq üçün tələb edilən xüsusi razılıq (lisenziya) və icazə sistemi ilə bağlı yaradılıb. Portal informasiya-kommunikasiya texnologiyaları sahəsində qabaqcıl nailiyyətlərin geniş tətbiqi yolu ilə ölkə vətəndaşlarının, eləcə də sahibkarların icazələrlə bağlı məlumatlılıq səviyyəsinin yüksəldilməsinə və bu sahədə şəffaflığın daha da artırılmasına xidmət edir. Portal sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyənlərə və fəaliyyətini genişləndirərək yeni sahələrdə çalışmaq istəyən sahibkarlara həmin fəaliyyətin növündən asılı olaraq tələb olunan icazə xarakterli sənədlər, onların alınması prosedurları, icazələrin verilmə və qüvvədə olma müddətləri, bu icazələri verən dövlət orqanları barədə məlumatları vahid mənbədən əldə etmək imkanı yaradır.

A.Əliyevin qeyd etdiyinə görə, portalda «sahibkarlıq sahəsinə aid qanunvericilik aktlarının layihələri» xidmət bölməsi yaradılıb ki, bu, yerli sahibkarlarla yanaşı, xarici investorlar üçün də mühüm əhəmiyyət kəsb edir. Həmin bölmədə mərkəzi və yerli icra hakimiyyəti orqanlarının sahibkarlıq sahəsinə aid hazırladıqları qanunvericilik aktlarının layihələri yerləşdirilir və layihələrin mətninin portalda bir ay müddətində saxlanılması təmin edilir. Bu bölmə sahibkarların məlumatlılıq səviyyəsinin yüksəldilməsilə yanaşı, qanunvericilik aktlarının hazırlanmasında onların birbaşa iştirakını mümkün edir, həmçinin sahibkarlıq sahəsini tənzimləyən normativ hüquqi aktların layihələrinin hazırlanması prosesinin daha şəffaf aparılmasına imkan yaradır. Təkcə bu ilin iyul ayında 26 qanunvericilik aktının layihəsi icazələrin elektron informasiya portalında yerləşdirilib.

Sahibkarlar qanunvericilik layihələri ilə virtual şəkildə tanış olaraq əlaqəyə girir, bir sıra qanun və normativ aktlardakı boşluqları, onların aradan qaldırılması yollarını göstərir, biznes fəaliyyəti ilə bağlı daha səmərəli təkliflərini verirlər. İİN rəsmisi mövcud qanunvericiliyin təkmilləşdirilməsi zamanı onların təkliflərinin nəzərə alınacağını bildirir.

Sahibkarlıq fəaliyyəti ilə məşğul olan xarici ölkələrin vətəndaşları, eləcə də biznes dairələri bu elektron resursa böyük maraq göstərirlər. Onlar Azərbaycanın sahibkarlıq mühiti, icazəverici sənədlər, onların alınması prosedurları, təqdim edilməli sənədlər, qanunvericiliyə dair zəruri məlumatlar əldə edirlər. Bu portal sahibkarlıq fəaliyyətinə başlamaq və fəaliyyətini genişləndirmək istəyən iş adamları üçün vahid informasiya mənbəyi hesab olunur. Mövcud tendensiya onu göstərir ki, xarici ölkələrin iş adamları ölkəmizin biznes mühiti, mövcud qanunvericilik barədə ətraflı məlumat toplamaqla Azərbaycanda fəaliyyətə başlamaq niyyətindədirlər. Beləliklə, bu internet portalı ölkəmizdə sahibkarlıqla məşğul olmaq istəyən əcnəbi sahibkarların təşviqi baxımından mühüm əhəmiyyət kəsb edir.

A.Əliyev İqtisadi İnkişaf Nazirliyi və Beynəlxalq Maliyyə Korporasiyası arasında imzalanmış Anlaşma Memorandumuna uyğun olaraq, sahibkarların məlumatlandırılması, onlara potensial tərəfdaşların tapılmasında və fəaliyyətlərini genişləndirməkdə köməklik göstərilməsi məqsədilə biznesinfo.az internet portalının da xarici ölkələrin iş adamları tətəfindən böyük maraqla qarşılandığını diqqətə çatdırıb. Saytın işinin əlaqələndirilməsi üçün İqtisadi İnkişaf Nazirliyi, Beynəlxalq Maliyyə Korporasiyası, İsveçrənin İqtisadi Məsələlər üzrə Dövlət Katibliyi (SECO), Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının və digər təşkilatların nümayəndələrindən ibarət Himayəçilər Şurası fəaliyyət göstərir. Portalda Azərbaycanın biznes və investisiya mühitinə dair məlumatlar, biznes xəbərləri, sahibkarların məlumatlandırılması üçün müxtəlif alətlər, yüklənə bilən formalar, biznes terminləri lüğəti və s. yerləşdirilmişdir. Saytda qabaqcıl beynəlxalq təcrübənin ölkəmizdə tətbiqinə dair məsləhətlər də yer almışdır.

İİN-nin sahibkarlar üçün istifadəyə verdiyi digər sayt olan elektron ticarət portalı isə e-ticarət sahəsində dövlət strukturları tərəfindən yaradılmış ilk layihələrdən biri sayılır. Azərbaycanda ilk elektron ticarət portalı vasitəsilə sahibkarlar bu saytda pulsuz qeydiyyatdan keçməklə, internet səhifəsində müxtəlif alqı-satqı təkliflərini yerləşdirə bilərlər. Portal sahibkarların məhsulları və onların göstərdikləri xidmətlər barədə geniş məlumat əldə etməyə, sahibkarların ticarət əlaqələrinin genişləndirməsinə imkan yaradır.

Elbrus CƏFƏRLİ